# İkinci dalğaya keçid ərəfəsi

**Koronavirus davam edir**

Bütün dünya gözlə görünməyən müharibənin iştirakçılarıdır. Dünyanı lərzəyə salan koronavirus (COVİD-19) infeksiyası davam edir və ikinci dalğası ilə bütün planeti



qorxu altında saxlayır. ABŞ COVİD-19-a yoluxma və ölüm sayına görə dövlətlər arasında birinciliyi saxlayır. Braziliya, Rusiya, Kolimbiya, Hindistan, Avstriya, Çexiya isə növbəti sıralardadır.

Sentyabrın ortalarından Gürcüstanda, həmçinin, təkcə yüksək səviyyəli səhiyyə və tibbi infrastrukturuna görə deyil, virusla mübarizədə fərqlənmiş ölkə kimi tanınan İsraildə də son zamanlar bəzi yumşalmalara gedildiyi üçün yoluxma sayı kəskin artımla izlənilir.

Ekspertlər bildirir ki, bu virusun dərmanı və ya vaksini tapılmayanadək onun tamamən aradan çəkiləcəyini proqnozlaşdırmaq real görünmür.

**Pandemiya bütün dünyada yayılmaqdadır**

Virus daha da aqressiv şəkildə yayılaraq əksər ölkələrdə sanitar-epidemioloji vəziyyəti daha da pisləşdirmişdir.

**Erkən yumşaldılmalar**

Ölkə vətəndaşları oktyabr ayınadək karantin qaydalarına ciddi şəkildə əməl etdiklərinə görə bu xəstəliklə mübarizədə bir sıra nailiyyətlər qazanmışdılar. Yoluxma hallarının kəskin azalması və stabilləşməyə nail olunmuşdu. İnsanlar arasında yoluxma sayındakı stabillik əhalini bir qədər arxayınlaşdırdı, virusun yox olması kimi anlaşıldı.

Dünyanın bütün ölkələrində olduğu kimi, Azərbaycanda da ölümcül virus yayılmaqda davam edir və təhlükə hələ də sovuşmayıb. Təcrübə göstərir ki, hansı ölkədə ki, erkən yumşaldılmalara gedilibsə, orada epidemioloji vəziyyət pisləşməyə doğru dəyişib. Bəzi ölkələr ikinci və üçüncü dalğa ilə üz-üzə qalıblar.

Koronavirusla mübarizədə son vaxtlar əldə olunan uğurlar cəmiyyətdə vaxtından əvvəl arxayınlıq yaratmışdır. Belə ki, sosial məsafənin gözlənilməməsi, maskadan və dezinfeksiya vasitələrindən istifadə edilməməsi halları artmışdır. Dayanacaqlarda, ictimai nəqliyyat vasitələrində bəzən karantin qaydalarına əməl olunmur. Bəzən də marşrut xətlərinə lazimi sayda avtobuslar (xüsusilə metro stansiyalarına sərnişin daşıyan avtobuslar) buraxılmadığı üçün avtobuslarda ayaq qoymağa belə yer olmur, insanlar bir-birinə çox sıx şəkildə yaxın olurlar. Həmçinin ticarət, iaşə-məişət obyektlərində ciddi pozuntular insanları narahat etmir. Buna görə də xəstəlik sürətlə yayılmaqdadır. Xəstəliyin sürətlə yayılması isə ciddi təhlükədir.

**İqlim dəyişkənliyi və ikiqat diqqət**

Qarşıdakı soyuq mövsümdə (payız-qış) ikiqat diqqət və məsuliyyət tələb olunur. Koronavirusun




dünyada daha geniş vüsət alması, respirator xəstəliklərin baş qaldırdığı bir dövrdə olduğumuzu nəzərə alsaq, daha diqqətli olmağımız vacibdir. Kiçik bir ehtiyatsızlıq, məsuliyyətsizlik, laqeydlik sonradan böyük fəsadlara yol açır.

Havanın temperaturunun dəyişkən olması, soyuq hava şəraiti ilə bağlı insanların qapalı məkanlara toplaşması, immunitetin aşağı düşməsi, məkanlarda pəncərələrin qapalı saxlanılması kimi səbəblər də xəstəliyin sürətli yayılmasına zəmin yaradır. Bu indiki müharibə dövründə bütün cəmiyyətimiz, döyüş meydanında olan hərbçilərimiz üçün ciddi təhlükədir.

**Vətən fədailərinin sağlamlığı üçün**

Pandemiya qaydalarına əməl etməsək hərbçilərimizin də sağlamlığına təhlükə yaratmış olarıq. Döyüş bölgələrində qazanılan qələbələr, işğal altında olan torpaqlarımızın günbəgün işğaldan azad olunması nəticəsində əhalinin bir-birinə yaxın olması, koronavirusu arxa plana çəkməsi və daha sıx ünsiyyətdə olması pandemiyanın daha da cövlan etməsi ilə nəticələndi. Əlbəttə bu, yoluxma sayının göstəricilərində daha aydın hiss olunur.

Xalqımız həm gözlə görünən, həm də, gözlə görünməyən düşmənlə mübarizə aparır. Belə bir dövrdə torpaqlarımızın azad olunması uğrunda göstərdiyimiz birlik, vətəndaş həmrəyliyi və intizamın görünməz düşmən koronavirus xəstəliyi ilə mübarizədə də göstərilməsi çox vacibdir. Buna görə də, karantin rejiminin tələblərinə daha ciddi əməl etməli, gücümüzü işğalçı düşmənlə mübarizəyə səfərbər etməliyik.

**Kəskin artım və məhdudiyyətlər**

Son günlər bir sıra ölkələrdə, o cümlədən Azərbaycanda yeni növ koronavirus (COVİD-19) infeksiyasına yoluxma hallarında kəskin artım müşahidə olunmuşdur. Bu səbəbdən sanitar epidemioloji vəziyyət nəzərə alınaraq, xüsusi karantin rejimi çərçivəsində bir sıra məhdudiyyətlərin tətbiq olunmasına qərar verilib.

**Arxa cəbhənin əsgərləri kimi**

Koronavirusa qarşı koronavirus cəbhəsində də döyüşümüzün davam etdiyini unutmamalıyıq. Arxa cəbhənin əsgərləri olaraq məsuliyyətimiz daha da artmalıdır. Müharibədə xalq olaraq göstərdiyimiz birliyi, həmrəyliyi COVİD-19 cəbhəsində də göstərməliyik. Həm ön cəbhəyə, həm də həkimlərə kömək etmək, özümüzün və əsgərlərimizin sağlamlığını qorumaq üçün karantin qaydalarına riayət etməliyik.

Koronavirus daha bir düşməndir, gözlə görünməyən düşmən! Bu düşmənlə mübarizə aparmaq üçün gündəlik qoruyucu tədbirlərə - maskadan istifadə, əl gigiyenasına diqqət, sosial məsafəyə riayət etmək lazımdır. Bu qaydalara əməl edərək xalqımızın sağlamlığını qorumalıyıq. Hər bir xalqın sağlamlığı cəmiyyətin sağlamlığıdır. Sağlam cəmiyyət və xalq isə bütün cəbhələrdə düşmənə qalib gəlir.

**Afət SÜLEYMANZADƏ,**
**“Qəbələ”**

# COVİD-19-la mübarizə qələbəyə, orduya dəstəkdir

Məlum olduğu kimi, sentyabr ayı başlayandan dünyanın bir çox ölkələrində yeni növ koronovirus infeksiyasına (COVİD-19) yoluxma sayında kəskin artım qeydə alınıb. Ötən iki ay ərzində ölkəmizdə vəziyyət stabil olsa da, son günlər Azərbaycanda da koronovirusa yoluxanların sayında kəskin artım müşahidə edilir. Belə ki, yoluxma və sağalma halları arasındakı əldə olunmuş müsbət dinamika dəyişib, sanitar-epidemioloji vəziyyət getdikcə pisləşir.

Qeyd etmək lazımdır ki, ölkəmizdə pandemiya ilə bağlı vəziyyətin dəyişməsi bir neçə səbəblə bağlıdır. Əvvəla, koronavirusla mübarizədə son vaxtlar əldə olunmuş uğurlar cəmiyyətdə vaxtından əvvəl arxayınlıq yaratmış, sosial məsafənin gözlənilməsi, maskadan və dezinfeksiya vasitələrindən istifadə edilməməsi halları kütləviləşib. Eyni zamanda, ticarət və iaşə obyektlərində, ictimai nəqliyyatda və digər ictimai yerlərdə qayda pozuntuları artıq insanları narahat etmir. Digər tərəfdən Ermənistanın növbəti təxribatı nəticəsində başlanmış müharibə bütün cəmiyyətimiz üçün ciddi təhlükə olan koronavirus pandemiyasını arxa plana keçirib. Odur ki, indiki məqamda koronovirusla mübarizədə fəal olmaq, xüsusi karantin rejiminin qaydalarına riayət etmək həm də cəbhədə döyüşən əsgərlərimizin sağlamlığı üçün vacibdir. Unutmaq lazım deyil ki, həm də güclü əsgər, güclü vətəndaş deməkdir.



Doğrudur, ölkəmiz Qarabağ cəbhəsində olduğu kimi koronovirus cəbhəsində də ləyaqətlə və ağılla mübarizə aparır. Lakin bu mübarizədə hər birimiz iştirak etməliyik. Biz anlamalıyıq ki, vətənimizin bu ağır dövründə özümüzü xəstəlikdən qorumaqla arxa cəbhəni zəifləməkdən və ön cəbhədə döyüşən hərbçiləri xəstəliklərdən müdafiə etmiş olarıq. Bu gün xəstəliyin geniş yayılması çox təhlükəlidir. Xəstəxanaların, tibb işçilərinin diqqəti cəbhəyə yönəldiyi bir dövrdə onları bu vacib işdən ayırmaq olmaz. Ona görə də özümüzü və döyüşən qüvvəmizi qorumalıyıq. Bunun üçün isə vacib şərt qaydalara əməl etməkdir, yeni şəxsi gigiyena qaydalarını gözləmək, tibbi maskadan istifadə etmək, kütləvi toplantılara mümkün qədər şərait yaratmamaq, sosial məsafə saxlamaq lazımdır.

İndiki məqamda hərbçilərimizin sıravi vətəndaşlarla bu və ya digər səbəbdən təmasda olduğunu nəzərə alaraq, əminliklə demək olar ki, hər bir koronavirus xəstəsi bu virusu cəbhəyə ötürə, hərbçilərimiz arasında xəstəliyin yayılmasına səbəb ola və bu ordumuzun ardıcıl uğurlarına ciddi zərbə vura bilər.

Həqiqətən də hazırda bir çox çətin və məsuliyyətli bir dövrdə yaşayırıq. Çünki mübarizəmiz tək bir cəbhəylə getmir. Bütün dünyada, o cümlədən ölkəmizdə yeni növ koronavirus (COVİD-19) pandemiyasının bitmədiyini unutmamalıyıq. Digər ölkələrlə müqayisədə Azərbaycanda sanitar-epidemioloji vəziyyət nəzarət altında olsa da son zamanlar yoluxma sayındakı artım bizi daha dərindən düşünməyə və ikiqat məsuliyyətli olmağa vadar edir. Odur ki, bu gün Azərbaycan ordusuna dəstək vermək istəyən hər bir vətəndaş ilk növbədə əsgər və zabitlərimizin sağlamlığı haqqında düşünməli, özünü və yaxınlarını xəstəlikdən qorumaqla haqq işimizə layiqli töhfəsini verməlidir. Bilməliyik ki, ön xətdə savaşan qəhrəman vətən övladlarına dəstək olmaq üçün arxa cəbhənin öz sağlamlığının qeydinə qalması olduqca vacibdir. Çünki biz qaydalara əməl etməməklə hərbçilərimizin də sağlamlığına təhlükə yarada bilərik. Ordumuza daha yaxşı dəstək göstərmək, əsgərlərimizin sağlamlığına təhlükə törətməmək üçün hər kəsi vətəndaş məsuliyyəti nümayiş etdirməyə çağırıraq . Ümid edirik ki, bu dəfə də Azərbaycan vətəndaşları məsuliyyətli davranacaq, hər iki cəbhədə, hər iki səngərdə düşmənə fürsət verməyəcək.

Qeyd etməliyik ki, insanların təmasının qarşısının alınmasına nə qədər çalışsaq da bu mümkün olmur. Hazırda səfərbərlik xidmətinə yola salınanların sayı artıb. Onların bir yerdə, yaxın təmasda olmamaları mümkünsüzdür. Doğrudur səfərbərlik xidmətinə yola salınan hər bir əsgər COVİD-19 testindən keçirilir və cavablar mənfi olduqdan sonra onlara yola düşməyə icazə verilir. Ön cəbhəyə gedən hər kəs sağlam olmalıdır, çünki bu, çox ciddi məsələdir. Hər bir valideyn öz övladını yola salarkən bağrına basmaq, qucaqlamaq istəyir, lakin mümkün qədər bu normalara riayət etmək lazımdır. Biz burda koronavirusdan qorunmayıb özümüzə xəstəxanaların çarpayı fondunu, həkimləri ayırmaqla, cəbhədən gələn yaralılara diqqəti azaldırıq. Hamımızın borcu cəbhədəkiləri qorumaqdır ki, onlar sağlam şəkildə Vətən müharibəsində torpaqlarımızı işğaldan azad etsinlər. Buna görə də koronavirus xəstəliyinin son günlərdə artdığına diqqət yetirərək sonradan nələrə səbəb olacağını düşünməklə həm qorunaq, həm də qoruyaq!

**Cavanşir MƏLİKOV,**
**Qəbələ RMX-nın PHŞ-in direktor müavini.**

## COVİD-19-la bağlı son statistika

Dünyada 44 774 763 nəfər koronavirusa yoluxub.

Virusdan 1 179 225 xəstə ölüb, 32 727 598 nəfər sağalıb.

Asiyada 13 409 096, Şimali Amerikada 10 916 519, Cənubi Amerikada 9 523 740, Avropada 9 127 677, Afrikada isə 1 759 578 nəfərdə virus aşkarlanıb.

Virusa yoluxma sayı bir milyonu keçən dövlətlər ABŞ (9 038 030 nəfər), Hindistan (7 990 322 nəfər), Braziliya (5 440 903 nəfər), Rusiya (1 547 774 nəfər), Fransa (1 198 695 nəfər), İspaniya (1 174 916 nəfər), Argentina (1 116 609 nəfər) və Kolumbiyadır (1 033 218 nəfər).

İranda 588 648, Türkiyədə 368 513, Ermənistanda 82 651, Gürcüstanda isə 33 858 nəfərdə koronavirus müəyyən edilib.

Azərbaycanda koronavirusa yoluxan 52 137 nəfərin 699-u ölüb, 42 033-ü sağalıb.